# Qalib abituriyentlər ünvanı

Repetitor hazırlıqları ali və orta ixtisas məktəblərinə hazırlaşan şagirdlərin bilik və bacarıqlarının daha da zənginləşməsində müstəsna rol oynayır... Hər bir abituriyent ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarına hazırlaşarkən seçdikləri ixtisaslara uyğun fənlərə daha ciddi hazırlaşmaq üçün repetitorlara müraciət edirlər.

Kaspi abituriyent və repetitor birliyi respublikamızda öz müvəffəqiyyətlərinə görə fərqlənir. Belə bir birliyə rayonumuzun yeniyetmələrinin, təhsilini davam etdirmək istəyən şagirdlərinin ehtiyacını nəzərə alaraq şəhər 5 saylı məktəbində tarix fənnini tədris edən Tahir Məsimov və İmamlı kənd əsas məktəbin coğrafiya müəllimi Taleh Babayev (ARB-nin) Abituriyent Repetitor Birliyinin Qəbələ filialını yaratdılar.

2014-cü ildə yaranan bu birliyin 2015-ci ildə ilk buraxılışı oldu. İlk buraxılışda 6 abituriyent 600 baldan yuxarı nəticə göstərdilər.

Keçən il 106 abituriyentdən 102 nəfəri ali məktəblərə qəbul olundu. Onlardan 14 nəfər 600-dən yuxarı, 19 nəfər isə 500-dən yuxarı bal topladılar.

Təhsildə özül ibtidai siniflərdə qoyulur deyirlər. Əlbəttə, ibtidai siniflərdə şagirdlərə tədris edilən hər bir dərslik onları yuxarı siniflərə hazırlayır. İbtidai təhsil orta təhsilə hazırlıq, ilkin cığırdır. Orta təhsil isə ali təhsilə yaşıl işıqdır. Buna görə də, hər bir abituriyentin oxuduğu məktəb və bu məktəbdə ayrı-ayrı fənləri tədris edən müəllimlərin zəhmət və bacarığı danılmaz və əvəzedilməzdir. Orta məktəbdə çalışqan olan şagirdlər repetitor birliklərində də fərqlənirlər. Axı bu birliklərdə qəbul imtahanlarına daha mükəmməl hazırlaşmaq üçün ayrı-ayrı fənlər üzrə məşğələlər keçirilir. Birlikdə savadı və bacarığı ilə seçilən müəllimlər çalışırlar.

COVİD-19 koronavirus pandemiyası bütün sahələrdə olduğu kimi birliyin fəaliyyətinə də mənfi təsir göstərdi. Martın 2-dən qəbul imtahanlarınadək dərslər onlayn şəkildə davam etdirildi. Əlbəttə çətinliklər oldu, abituriyentlər alışmadığı bir formada təhsilə başladılar. Abituriyentlərin həvəs və iradələri, həmçinin, müəllimlərin peşəkarlığı arzuların reallaşmasında müsbət rol oynadı.

Pandemiyanın mənfiliklərini nəzərə alaraq birlik abitureyntlərə müəyyən güzəştlər etdi. Belə ki, 10 nəfər 100%, 30 nəfər 75%, 29 nəfər 50%, 27 nəfər 25%, həmçinin, 80 faiz abituriyentlərə isə təhsil haqqının ödənişində 5%-20% arası güzəştlər edilmişdir. Bu abituriyentlər tərəfindən razılıqla qarşılanmış və onların təhsilinə müsbət təsir etmişdir.

Bu il 119 nəfər şagird qəbul imtahanlarında iştirak etmiş, onlardan 114 nəfər ali məktəbə qəbul olunmuşdur.

Tələbə adı qazananlardan 11 nəfər 600-dən, 15 nəfər isə 500-dən yuxarı bal toplamışlar.

Bu il bütün abituriyentlərin ali məktəblərə sənəd qəbulu və ixtisas seçimi həmişə olduğu kimi ixtisaslaşmış müəllimlərin köməyilə həyata keçirilmişdir.

Onu da qeyd etmək lazımdır ki, rayon üzrə ən yüksək bal toplayan 3 nəfər- İsmayıl Məsimov (689) Nohurqışlaq, Aytac Əmirova (685) şəhər 4 saylı, Bilal Haqverdiyev (680) Nohurqışlaq orta məktəbinin şagirdləri məhz Qəbələ Abituriyent və Repetitor Birliyinin bu ilki buraxılışının abituriyentləridir.

Həmçinin II qrup üzrə rayon birincisi Sübhan Qəribli (600 bal, şəhər 4 saylı), III qrup üzrə rayon ikincisi Anar Məlikov (670 bal, şəhər 2 saylı) da birliyin abituriyentləridir.

Gələcəyin savadlı, xalqına, vətəninə peşəkarcasına xidmət edəcək mütəxəssislər yetişməsində Qəbələ Abituriyent və Repetitor Birliyinin də zəhməti, əməyi danılmaz faktdır. Uğurlarınız bol olsun!

**BİBİXANIM.**

# Birincilik

Şəhər 4 saylı məktəb rayonumuzun şagird sayına görə ən böyük məktəblərindən biri sayılır. Məktəbdə fəaliyyət göstərən ibtidai-sinif və ayrı-ayrı fənn müəllimləri şagirdlərin pandemiya dövründə də bilik səviyyəsinin aşağı düşməməsi üçün onlayn təhsil sistemindən bacarıqla istifadə etmişlər. Elə bunun nəticəsidir ki, məktəbimizin məzunları rayon məktəbləri arasında bu ilki ali məktəblərə qəbulda birinci pillədədir.

Keçən il məktəb məzunlarından 95 nəfər ali məktəbə qəbul olmuşdur. Ancaq bu il 96 nəfər məzundan 60 nəfər ali məktəbə qəbul olunaraq tələbə adı qazanmışlar.

Onlardan 7 nəfəri 600-dən yuxarı, 8-i isə 500 dən yuxarı bal toplayaraq respublikamızın müxtəlif ali məktəblərinə qəbul olmuşlar.

**Ağazadə MƏMMƏDYAROVA, məktəbin müəllimi.**

# Həmişə öndə

Rayonumuzun Vəndam qəsəbəsi həmişə öz ziyalıları ilə seçilmiş, qəsəbə 1 saylı orta məktəb ali məktəbə qəbul sayına görə rayon məktəbləri arasında seçilmişdir. 2019-2020-ci tədris ilində isə ali məktəblərə qəbul olan abituriyentlərin sayına görə ikinci yerdədir.

Onu da qeyd etmək lazımdır ki, məzunların sayına görə məktəb yenə də birincilər sırasındadır. Belə ki, bu il 61 şagird məzun olmuş, 47 nəfər ali məktəbə sənəd vermiş və onlardan 37 nəfər tələbə adı qazanmışdır. Tələbə adı qazananlardan 600-dən yuxarı 5 məzun, 8 nəfər isə 500-dən yuxarı bal toplayaraq ölkəmizin müxtəlif universitetlərinə qəbul olunmuşlar.

**Leyla İSAYEVA, məktəbin müəllimi.**

*Tarix, etnoqrafiya, folklor*

# 450 000 illik tarixin yaddaşı

*“Qəbələ Qafqazın incisidir.”*
*Heydər Əliyev.*

Azərbaycanın maddi və qeyri-maddi irsinin qorunub saxlanılması, tarixi, dini, mədəni abidələrin bərpası və dünyada tanıdılması üzrə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən görülmüş işlərin miqyası ölçüyəgəlməzdir. SEBA (Seul- Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası da bu təşəbbüsə öz töhfəsini vermək məqsədilə Qafqaz Albaniyasının ilk paytaxt şəhəri olmuş Qəbələ şəhərində arxeoloji tədqiqatlara dəstək verib. Ümumiyyətlə, 2500 illik qədim tarixə malik Qəbələnin tarixinin araşdırılması, öyrənilməsi həmişə yerli və xarici arxeoloqların, tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Artıq 2005-ci ildən Qəbələ ilə bağlı elmi araşdırmalar SEBA Assosiasiyasının Qəbələ Arxeoloji Ekspedisiyası layihəsinin gerçəkləşdirilməsi ilə bərpa edilib. 2009-cu ildən etibarən bu günə qədər ekspedisiya fəaliyyətini Koreya alimləri ilə birgə beynəlxalq statusda davam etməkdədir. Qəbələ ilə bağlı araşdırmaların davamı olaraq 2011-2016-cı illərdə SEBA Assosiasiyasının dəstəyi ilə akademik Teymur Bünyadovun rəhbərliyi altında AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşlarından ibarət “Qəbələ etnoqrafik ekspedisiyası” Qəbələ bölgəsində tədqiqat aparıb. Ekspedisiyanın fəaliyyətinin nəticəsi olan “Qəbələ tarixi” , “Qəbələ etnoqrafiyası” və “Qəbələ folkloru” kitablarından ibarət toplu 3 dildə (Azərbaycan, rus, ingilis) “TEAS Press” nəşriyyat evi tərəfindən Bakıda və İstanbulda nəşr edilib. Kitabdakı əsərlərin iki xarici dildə nəşri respublikamız və xalqımız üçün mühüm elmi, mədəni və siyasi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, “Qəbələ tarixi” kitabında



bölgənin 450 000 il əvvəl başlanan tarixi 2017-ci ilin əvvəlinə qədər öz əksini tapıb. Kitabda Qəbələ bölgəsinin ibtidai icma, tunc, antik və orta əsrlər dövrlərini əhatə edən minilliklər boyu tarixi keçmişi, qədim Qəbələ şəhərinin Qafqaz Albaniyasanın paytaxtı kimi formalaşması və yüksəlişi , XVIII əsrə qədər Qafqazın və Şərqin görkəmli şəhərlərindən biri olması XIX-XXI əsrlərdəki yüksəlişi barədə geniş məlumat verilib.

“Qəbələ etnoqrafiyası” kitabında regionun təbii-coğrafi şəraitini və etnik mənzərəsini, təsərrüfat həyatını, sənətkarlıq sahələrini, maddi-mənəvi mədəniyyətini, ailə və ailə məişəti barədə məlumatlar geniş oxucu kütləsinin diqqətinə təqdim edilir.

“Qəbələ folkloru” kitabında isə çoxəsrlik folklor mədəniyyəti (xalq poeziyası, əfsanələr və s.) ilk dəfə əhatəli şəkildə qələmə alınıb.

Akademik Teymur Bünyadov Qəbələ bölgəsi və qədim Qəbələ şəhərinin arxeoloji, tarixi və etnoqrafik baxımdan kompleks tədqiqatlarının nəticəsi olaraq əsərlərin ərsəyə gəlməsində böyük rolu olan SEBA Assosiasiyasının prezidenti, geologiya üzrə fəlsəfə doktoru Rühəngiz Heydərovanın təmənnasız dəstəyini xüsusi qeyd edib.

Ekspedisiya zamanı çöl materiallarının toplanmasında Qəbələnin yerli sakinlərinin yaxından köməklik göstərdiyini qeyd edən Teymur Bünyadov öz yurdunun tarixini böyük yanğı ilə öyrənməyə can atan vətən təəssübkeşli qəbələlilərə də öz minnətdarlığını bildirib.

**ƏFSANƏ.**

# On məzundan beşi tələbə

***Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq.***
***Heydər Əliyev.***

Əgər şagirddə ona dərs deyən müəllim elmə, savada, ən ümdəsi kitaba maraq oyada, istək yarada bilibsə, bilik qazanmağın, elm öyrənməyin gələcək həyatın formalaşdırdığını, kamil bir insan kimi yetişəcəyini dərk etdirə bilibsə, deməli, o şagird gələcəkdə vətəninə layiqli bir mütəxəssis, gərəkli bir insan kimi yetişəcək. Oxumaq isə hər bir məktəblinin vəzifəsi, işidir. Oxuduğu təhsil ocağının sadə bir məktəb, lisey, gimnaziya olmasından asılı olmayaraq oxumaq həvəsi, niyyəti, məqsədi olan hər kəs elm öyrənəcək, arzularını reallaşdırmaq üçün mübariz olacaqdır.

Məmmədağalı kəndi rayonumuzun kiçik kəndlərindən biridir. Əvvəllər burada ibtidai məktəb var idi, şagirdlər qonşu kəndlərdəki məktəblərə gedir, təhsillərini davam etdirirdilər. Sonralar natamam orta, hazırda isə tam orta məktəb kimi fəaliyyət göstərir. Şagird sayından asılı olmayaraq hər bir müəllim tədris etdiyi fənnə məsuliyyətlə yanaşır, şagirdlərə dərsləri ətraflı izah edirlər. Elə bu məktəbdə də müəllim əməyinin, məsuliyyətinin nəticəsi göz önündədir.

Məktəbin buraxılış sinfində 10 şagird məzun olub. Onlardan 3 nəfəri fərqlənmə attestatı almışdır. Buraxılış və qəbul imtahanlarının nəticələrinə görə 2 nəfər 600-dən, 2 nəfər 500-dən yuxarı bal toplamışdır. Bir sözlə, məktəbin 5 nəfər məzunu ali məktəbə qəbul olmuşdur.

Sərxan Eyyubov 610 (BDU hüquq), Şamil Yaralıyev (Polis Akademiyası), Pünhan Zamanov (Azərbaycan Dillər İnstitutu, ingilis dili), Emin Abdurahmanov (Polşa İqtisadi Universitetinə ödənişsiz əsaslarla), Aydın Məhəmmədzadə 364 balla (Milli Aviasiya Akademiyasına) tələbə adı qazanmışlar.

Onlar seçdikləri ixtisasla gələcəyin savadlı, bacarıqlı mütəxəssisləri olacaq, təkcə öz kəndlərinin deyil, qədim Qəbələmizə şərəf və fəxarət gətirəcək, xalqımızın adına layiq vətəndaş olacaqlar.

**BİBİXANIM.**